# İMAMLIQ DÖVRÜNÜN BAŞLANMASI

<"xml encoding="UTF-8?>

İMAMLIQ DÖVRÜNÜN BAŞLANMASI

İslam ümmətinin on birinci məsum rəhbəri 28 yaşında ikən zalım Abbasi xəlifəsi Mötəmid tərəfindən zəhərlənib şəhid edildikdə, həzrət Məhdi (əc.) beş yaşlı bir uşaq idi[1]. Onun uşaq ikən imamlığa başlaması is , ilahi möcüzəni və Allahın bütün məsum imamların vücudunda qoyduğu heyrətamiz qüdrəti nəzərə almaqla, qətiyyən şübhəli və qəribə görünməməlidir.

Tarixdə dəfələrlə buna bənzər hadisələr baş vermişdir. Hamının qəbul etdiyi bu nümunələrdən biri Yəhya peyğəmbərin haqqındadır. Allah-taala Qurani-kərimdə buyurur: **"**و آتيناه الحكم" "Və uşaq ikən ona peyğəmbərlik verdik"[2].

Həzrət İsa peyğəmbərin beşikdə dil açıb danışması haqda isə belə buyurulur:

قال انى عبدالله آتاني الكتاب وجعلنى نبيا

"Dedi: "Mən Allahın bəndəsiyəm. O mənə kitab vermiş və məni peyğəmbər etmişdir"[3].

---

[1] İmam Həsən Əsgərinin (ə) həyatı; İrşad, səh: 383.

[2] Məryəm/12.

[3] Məryəm/30.